

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 sentyabr 2024-cü il №68 (2879) https://mod.gov.az Qiymәti 30 qәpik


## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında gümüş medal qazanan Lamiyə Vəliyevanı təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Lamiyə Vəliyevanın "Paris-2024" Yay Paralimpiya Oyunlarında növbəti uğuru - gümüş medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Paris-2024" Yay Paralimpiya Oyunlarında dünya rekordunu yeniləmiş qızıl mükafatçımız Lamiyə Vəliyevanın növbəti qələbəsi! Gümüş medal! Azərbaycanı layiqincə təmsil edən idmançımızı səmimi-qəlbdən təbrik edir, ona güc, enerji və yeni qələbələr arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan Orxan Aslanovu təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Orxan Aslanovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Uzunluğa tullanma yarışında mübarizə aparan Orxan Aslanovu qızıl medal münasibətilə təbrik edirəm! "Paris-2024" Yay Paralimpiya Oyunlarında Azərbaycana medal qazandırmış bütün idmançılara minnətdaram! Paraatletimizə güc, enerji və yeni qələbələr arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan İlham Zəkiyevi təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paracüdoçusu İlham Zəkiyevin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Növbəti qələbəmiz! İlham Zəkiyev "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazandı! Gərgin əməyinə və qələbə əzminə görə paracüdoçumuza təşəkkür edirəm! Milli yığmamızın bütün üzvlərinə yeni qələbələr və nailiyyətlər arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan Raman Saleyi təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında 3-cü medalı! Bürünc mükafatçını təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərimizə təşəkkür edirəm! Hər bir idmançıya möhkəm cansağlığı, güc və yeni nailiyyətlər arzulayıram".

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Sentyabrın 9-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qazaxıstan Prezidenti, ilk növbədə, ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib.

Kasım-Jomart Tokayev Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə Azərbaycan Respublikası Prezidentinin iştirakını xüsusi qeyd edib.

Prezident İlham Əliyev Məşvərət görüşünə dəvətə görə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı hazırda Qazaxıstanda keçirilən V Dünya Köçəri Oyunlarının uğurlu təşkili münasibətilə təbriklərini çatdırıb. Qazaxıstan Prezidenti öz növbəsində Azərbaycan idmançılarının bu Oyunlarda fəal iştirak etdiklərini vurğulayıb.

Bu ay Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi məsələsi də məmnunluqla qeyd olunub.

Tərəflər Azərbaycan və Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıblar.

Qazaxıstan Prezidenti Astananın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların aparılması üçün platforma rolunu oynamağa hazır olduğunu bildirib.

Dövlətimizin başçısı Azərbaycan üçün Astanada iki ölkə arasında bu danışıqların aparılması təklifinin məqbul olduğunu qeyd edib.

Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.



*Təlim*

## Təlimlər şəxsi heyətin fərdi bacarıqlarını daha da təkmilləşdirir

Təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olan müasir ordu quruculuğunun uğurla icrası dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığına əsasən bu gün də davam etdirilir.

Regionun ən güclüsü, yenilməz və qalib ordumuzun döyüş hazırlığının daha da möhkəmləndirilməsi, 44 günlük Vətən müharibəsində qazanılan təcrübənin şəxsi heyətə dərindən aşılanması, komandirlərin hərbi biliklərinin, idarəçilik qabiliyyətlərinin, əsgərlərin fərdi bacarıqlarının, eləcə də döyüş ruhunun daha da artırılması məqsədilə bölmələrimizdə döyüş hazırlığı dərslərinin, təlimlərin mütəmadi keçirilməsi prioritet məsələ olduğu üçün, təlimlərdə şəxsi heyətin nəzəri bilikləri sınaqdan keçirilir, onlar öyrəndiklərini təlim meydanında praktiki icra edərək bacarıqlarını möhkəmləndirirlər. Real döyüş şəraitinə uyğunlaşdırılaraq keçirilən təlimlərdə tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsi döyüş əməliyyatlarında qazanılan qələbənin təminatçısı olur. İkinci Qarabağ müharibəsi və ondan sonrakı dövrdə həyata keçirilən digər uğurlu əməliyyatlarda bunun əyani şahidi olduq. Təlim meydanlarında döyüş hazırlığını, müasir silah və texnikadan istifadə bacarıqlarını möhkəmləndirən şəxsi heyət bu əməliyyatları zəfərlə başa çatdırdı.

Beləliklə, şəxsi heyət günün vaxtından, ərazinin iqlimi və relyefindən asılı olmayaraq həm döyüş bacarığını artırır, həm də gündəlik xidməti fəaliyyətini arzuolunan şəraitdə təşkil edir. Təcrübəli komandirlərimiz də öz növbəsində əsgərlərlə öz bilik və bacarıqlarını bölüşür, onların mənəvi-psixoloji vəziyyətini daim nəzarətdə saxlayırlar.

(Ardı 4-cü səhifədə)

## Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram**:

1. XVII Yay Paralimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min) manat, onun məşqçisinə 25 000 (iyirmi beş min) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 sentyabr 2024-cü il

## Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram**:

Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**
Aslanov Orxan Əlövsət oğlu
Vəliyeva Lamiyə Rövşən qızı

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Xəlilov İmaməddin Marif oğlu
Nəcəfzadə Səid Əli oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Salei Raman Serqeyeviç
Zəkiyev İlham Əzizağa oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Zeynalov Sabir Elniz oğlu

**1-ci dərəcəli "Əmək" ordeni ilə**
Panyutin Oleq Viktoroviç

**2-ci dərəcəli "Əmək" ordeni ilə**
Culfayev Alavərdi Abasoviç
Zayets Vladimir Vladimiroviç

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
İbrahimov İbrahim Eldar oğlu
Kirillov Fyodor Borisoviç

**"Tərəqqi" medalı ilə**
Xəlilov Arif Məmməd oğlu
İsrafilov Nazim Məhəmmədvəli oğlu
Şükürov Vüqar Gülağa oğlu
Tağızadə Fərid Əvəz oğlu

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**
Əliyev Rəşad Rauf oğlu
Əliyev Tofiq Zöhrab oğlu
İsrafilov Vəli Rəşadət oğlu
Zahidov Azad Zakir oğlu.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 sentyabr 2024-cü il

## Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Daxili İşlər naziri cənab Ali Yerlikaya ya və Jandarma Baş Komandanı ordu generalı Ali Çardakcıya başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Tunceli vilayətində qardaş Türkiyə Respublikasının Jandarma Baş Komandanlığına məxsus nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində hərbi qulluqçuların şəhid olması xəbəri məni çox kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Faciəvi qəza zamanı bütün həlak olanların yaxınlarının və əzizlərinin kədərinə şərik olduğumuzu bildirir, onlara Allahdan səbir, yaralı hərbi qulluqçumuza şəfa diləyirəm.

Ruhları şad, xatirələri əziz olsun.

Allah rəhmət eləsin".

## Müdafiə Nazirliyinin rəhbərliyi şərti sərhəd istiqamətində xidmət edən hərbi qulluqçularla görüşüb





*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev şərti sərhəd istiqamətində dislokasiya olunan bölmələrdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti ilə tanış olub.*

Məruzə edilib ki, hərbi qulluqçuların xidməti fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə bütün lazımi infrastruktur qurulub və maddi-texniki təminatı normalara uyğun olaraq tam həcmdə həyata keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, sonra hərbi qulluqçularla görüşən müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində Azərbaycan Ordusunda həyata keçirilən tədbirlərdən danışıb.

Hərbi qulluqçularla söhbət zamanı general-polkovnik Zakir Həsənov şəxsi heyətin qayğıları ilə maraqlanıb, onların peşəkarlığının, bilik və bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı müvafiq tövsiyələr verib.

## Azərbaycan Ordusunda maddi-texniki təminat üzrə toplanış keçirilib

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində qoşun növü, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin maddi-texniki təminat üzrə idarə, şöbə (bölmə) və xidmət rəisləri ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, toplanışda Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Eldəniz Yəhyayev iştirak edib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Toplanışda cari il ərzində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzələr dinlənilib, maddi-texniki təminatın vəziyyəti və bu sahədə həyata keçirilən islahatlar təhlil olunub.

Tədbirdə çıxış edən general-mayor E.Yəhyayev Azərbaycan Ordusunda maddi-texniki təminat sahəsində görülən tədbirlər və qarşıda duran başlıca vəzifələrdən danışıb.

Həmçinin maddi-texniki təminat üzrə ümumi vəziyyət, silahlanmaya yeni daxil edilmiş silah, texnika və digər vasitələrin uçotu, onların istismarı haqqında məlumatların çatdırılması, qoşunlarda maddi-texniki təminatın perspektivləri və qış dövrünə hazırlıqla bağlı məsələlər müzakirə olunub.

Bundan başqa, Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlər çərçivəsində maddi-texniki təminatın vahid mərkəzdən daha operativ idarə olunmasını təmin etmək məqsədilə yeni məlumat sisteminin yaradılmasından danışılıb.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyinin maddi-texniki təminatın gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqları aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırılıb.

## ANAMA: Ötən həftə 1583 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatlarına dair həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, sentyabrın 2-dən 8-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 21, tank əleyhinə 65 mina və 1583 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 907.1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Azərbaycanın müdafiə nazirinin Gürcüstana səfəri



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Batumi şəhərində keçiriləcək Azərbaycan-Gürcüstan-Türkiyə müdafiə nazirlərinin 11-ci üçtərəfli görüşündə iştirak etmək üçün Gürcüstana səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşlərdə ikitərəfli və üçtərəfli formatda birgə hərbi əməkdaşlığın yeni perspektivlərinin, eləcə də regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi planlaşdırılıb.

### Azərbaycan və Gürcüstan müdafiə nazirləri hərbi sahədə əməkdaşlığa dair məsələləri müzakirə ediblər

Sentyabrın 10-da Batumi şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Gürcüstanın müdafiə naziri cənab İrakli Çikovani arasında ikitərəfli görüş keçirilib.

Hər iki ölkə nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə cənab İrakli Çikovani qonaqları salamlayaraq, Azərbaycan




ilə Gürcüstan arasında əlaqələrin inkişafında dövlət başçılarımızın görüşlərinin mühüm rol oynadığını xüsusi vurğulayıb.

Qonşu və qardaş ölkəyə səfərindən məmnunluğunu ifadə edən general-polkovnik Zakir Həsənov bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin davamlı olaraq



inkişaf etdiyini qeyd edib.

Azərbaycanın müdafiə naziri bildirib ki, qarşılıqlı səfərlərin və müxtəlif formatda görüşlərin keçirilməsi ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunun bariz nümunəsidir.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonra tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunması, hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yeni perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

### Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq yüksək səviyyədədir

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 10-da Batumi şəhərində Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler ilə görüşüb.



Görüşdə müdafiə nazirləri Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın, strateji müttəfiqliyin yüksək səviyyədə olduğunu, eyni zamanda, dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu diqqətə çatdırıblar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iki qardaş ölkə arasında müdafiə sahəsindəki mövcud əməkdaşlığı və perspektiv imkanları yüksək dəyərləndirdiyini xüsusi vurğulayan müdafiə nazirləri əlaqələrimizin daha da gücləndirilməsi məqsədilə bu cür görüşlərin zəruriliyini qeyd ediblər.

Müdafiə nazirləri qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyini əminliklə bildiriblər.

İkitərəfli görüşdə birgə təlimlərin, təcrübə mübadiləsinin intensivliyinin artırılması, regionda və dünyada mövcud hərbi-siyasi proseslər, bölgədə dayanıqlı sülhün və sabitliyin təmin edilməsi yolları, həmçinin qarşılıqlı maraq doğuran müxtəlif məsələlər haqqında ətraflı fikir mübadiləsi aparılıb.

### Batumidə Azərbaycan-Gürcüstan-Türkiyə müdafiə nazirlərinin 11-ci üçtərəfli görüşü keçirilib

Sentyabrın 10-da Batumi şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler və Gürcüstanın müdafiə naziri cənab İrakli Çikovani arasında üçtərəfli görüş keçirilib.

Görüşdə əsrlərdir xalqlarımızın mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, bu gün də dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə qarşılıqlı əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi xüsusi




olaraq qeyd edilib.

Qarşılıqlı etimada əsaslanan əməkdaşlığın xalqlarımızın xoşbəxt gələcəyi və rifahının təmin olunması baxımından böyük əhəmiyyət kəsb etdiyi bildirilib.

Üçtərəfli görüşdə müasir dövrün çağırışları, eləcə də regionumuzun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə birgə səylərin birləşdirilməsinin və bu istiqamətdə fəaliyyətlərin qarşılıqlı əlaqədə həyata keçirilməsinin vacibliyi qeyd edilib.

Müdafiə nazirləri üçtərəfli və ikitərəfli birgə təlimlərin, qarşılıqlı təcrübə mübadiləsinin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Əminliklə vurğulanıb ki, müdafiə sahəsində üçtərəfli əməkdaşlığın inkişafı təkcə ölkələrimiz üçün deyil, eləcə də regionda dayanıqlı sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına böyük töhfələr verəcəkdir.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın yeni perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı maraq doğuran bir çox mövzularla bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonda üçtərəfli görüşün yekununa dair protokol imzalanıb və media nümayəndələri üçün mətbuat konfransı keçirilib.

# Xüsusi təyinatlılarımız "Sonsuz qardaşlıq - III" təlimində iştirak edirlər

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı"na əsasən, Qazaxıstanda "Sonsuz qardaşlıq - III" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təlimi keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun xüsusi təyinatlıları təlimdə iştirak etmək üçün Qazaxıstanda səfərdədirlər.

Türküstan vilayətində yerləşən Orda poliqonunda keçirilən təlim sentyabrın 19-dək davam edəcək.

* * *



Sentyabrın 10-da Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda "Sonsuz qardaşlıq - III" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təliminin təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlılarının iştirakı ilə keçirilən təlimə İordaniya və Qırğızıstan müşahidəçi qismində dəvət olunub.

Təlimlərin keçirilməsində məqsəd idarəetmə orqanlarının və bölmələrin fəaliyyətində operativ uzlaşmanın təmin olunması, şəxsi heyətin praktiki vərdişlərinin artırılması, qarşılıqlı təcrübə mübadiləsi və peşə vərdişlərinin təkmilləşdirilməsidir.

Plana uyğun olaraq xüsusi təyinatlı bölmələrlə taktika, atəş, dağ-paraşüt, snayper hazırlığı üzrə məşqlər keçiriləcəkdir.

Təlimin yekununda xüsusi təyinatlı bölmələr yaşayış məntəqəsində qeyri-qanuni silahlı dəstənin aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə təlim-döyüş əməliyyatı tapşırıqlarını yerinə yetirəcəklər.

Zirehli texnika, ordu aviasiyası və PUA-ların cəlb edildiyi "Sonsuz qardaşlıq- III" çoxmillətli birgə təlimində 6 ölkənin 300-dək xüsusi təyinatlı hərbi qulluqçusu iştirak edir.

# Təlimlər şəxsi heyətin fərdi bacarıqlarını daha da təkmilləşdirir



(Əvvəli 1-ci səhifədə)

İşğaldan azad olunmuş, şanlı üçrəngli bayrağımızın dalğalandığı tarixi torpaqlarımızdan birində yerləşən Quru Qoşunlarının "N" hərbi hissəsinin minaatan bölməsinin çöl dərsində iştirak etdik. Minaatan heyəti məşğələ rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elnur Bəkirovun komandalarını qəbul edir, verilən tapşırıqları cəldlik və dəqiqliklə yerinə yetirirdi. Bölmədəki döyüş ruhu şəxsi heyətin sinxron olaraq - hər kəs öz tapşırığına uyğun - komandaların peşəkarlıqla icrasından aydın hiss olunurdu. Məşğələ başa çatdıqdan sonra məşğələ rəhbəri ilə həmsöhbət olduq. Elnur ordu rəhbərliyinin qarşıya qoyduğu tapşırıqlara əsasən, məşğələlərin təşkil olunduğunu qeyd edərək söhbətə başladı. "Döyüş hazırlığının tərkib hissəsi olaraq şəxsi heyət həm sinif, həm də çöl dərslərində müvafiq olaraq öz ixtisasının nəzəri və praktiki üsullarını daha dərindən mənimsəmək üçün məşq edir. Daha sonra şəxsi heyətin mənimsədiyi bilik və bacarıqlar sınaqdan keçirilir. Gördüyünüz kimi, bölməmizin hərbi qulluqçuları normativi tələb olunan vaxt ərzində, dəqiqliklə yerinə yetirdilər. Heyətin hər bir üzvünün döyüş qabiliyyəti həm qrup şəklində, həm də fərdi şəkildə yoxlanılır.

Uzun müddətdir ordu sıralarında xidmət edirəm və xidmət müddətində müxtəlif təcrübəli komandir və igid əsgərlərlə yollarım kəsişib. 44 günlük Vətən müharibəsi zamanı Füzuli və Şuşa istiqamətində gedən döyüşlərdə peşəkar komandirlər və şəxsi heyətimizlə birlikdə düşmənin müxtəlif hərbi təyinatlı nöqtələrinə zərbələr endirmişik. Qələbədə az da olsa payım varsa, çox xoşbəxtəm. Həmin günlər tarixi günlər idi, qürurlu günlər idi. Şəhidlərimizin qisası alındı. Bu gün tarixi torpaqlarımızda xidmət etməkdən və əsgərlərimizə hərbi bilik və bacarıqları aşılamaqdan qürurluyam", - deyən çavuş E.Bəkirov söhbətini başa vurdu.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Teyyub Yaqubov bildirdi ki, minaatan qurğunun istifadəsi zamanı hər bir heyət üzvü öz vəzifəsini bilməli və vaxtının hər saniyəsini düzgün istifadə etməlidir. "Bunun üçün də normativlər dəqiq və vaxtında icrası vacib şərtdir. Şəxsi heyət həm qrup şəklində, həm də fərdi şəkildə komandaları icra etməyi bacarmalıdır. Dərs və məşğələlərdə "döyüşə" və "səfərə" komandalarının icrası, hədəfin təyin edilməsi, atəş mövqeyinin seçilməsi və dəyişdirilməsi üzrə müxtəlif normativlər icra olunur. Günün müxtəlif vaxtlarına uyğun olaraq dərslər keçirilir".

Daha sonra minaatan heyət nəfərləri ilə həmsöhbət olduq. Əsgər Rəvan Mənsumzadə təcrübəli komandirlər sayəsində ixtisasının incəliklərini mənimsədiyini qeyd etdi. "Peşəkar komandirlərimizdən ixtisasımızın və minaatan qurğunun incəliklərini öyrənmişik. Onların sayəsində verilən komandaların icrasını rahatlıqla yerinə yetiririk. Bizim layiqli vətəndaş kimi formalaşmağımızda komandirlərimizin böyük rolu var", - əsgər R.Mənsumzadə dedi.

Xidmətinin başa çatmasına sayılı günlər qalmış əsgər Vüsal Şamxalovdan bu kollektivdən ayrılmanın ona nə hiss bəxş etdiyini soruşduq. "Təbii ki, hər şeyin əvvəli və sonu olan kimi, xidmətin də başlama və bitmə nöqtəsi olur. Təcrübəli komandirlərim və sadiq əsgər yoldaşlarımdan ayrıldığım üçün məyusam. Lakin xidmətim müddətində öz hərbi intizamımla, bilik və bacarığımla müsbətə doğru fərqlənməyi bacararaq komandirimə və ailəmə başucalığı gətirərək xidmətimi başa vuracağım üçün sevincliyəm. Silahdaşlarımla yoldaşlığımız bundan sonra da davam edəcək, çünki hərbi xidmətdə qazanılan dostluq ən sadiq dostluqdur".

Əsgər yoldaşından fərqli olaraq hələ xidmətinin çox hissəsi qarşıda olan heyət üzvü Sərvan Cəfərzadənin də fikirlərini qələmə aldıq. "Bu ixtisasa yiyələnərkən, çətinlik çəkəcəyimi düşünmüşdüm. Lakin bölməmizdə təcrübəli komandirlərimizin və əsgər yoldaşlarımın köməyi və dəstəyi ilə bu ixtisasın həm nəzəri, həm də praktiki hissəsini öyrənməyi bacardım və bu gün də öz üzərimdə çalışmaqda davam edirəm".

Bölmədə yaradılan yüksək səviyyəli şəraitdən danışan əsgər Məcid İsmayılov minaatan heyət nəfəri olmağın yüksək fiziki və mənəvi-psixoloji hazırlıq tələb etdiyini qeyd etdi. "İdman şəhərciyində, ideoloji otaqlarda, kitabxanada günün nizam qaydalarına uyğun olaraq, fəaliyyətlərimizi təşkil edirik. İdman fiziki gücümüzə, ictimai-siyasi hazırlıq, asudə vaxt, kitabxana guşəsi mənəvi gücümüzə müsbət təsir göstərir. Özümüzü həm fiziki, həm də psixoloji olaraq həm xidmətə, həm də tapşırıqların icrasına hazır hiss edirik. Komandirlərimizin nəzarəti altında xidmətimizi lazımi səviyyədə təşkil edirik. Onlar bizə doğma münasibət və qayğı göstərir, qayğılarımızla maraqlanırlar. Bölməmizdə əsl ailə mühiti yaranıb ki, buna görə də komandirlərimizə borcluyuq".



İzlədiyimiz dərs prosesi, əsgərlərimizin qətiyyətli sözləri bir daha ordumuzun gücünün, şəxsi heyətin vətənpərvərliyinin təsdiqi oldu. Bir daha əmin olduq ki, Azərbaycan əsgərinin döyüş hazırlığı və Vətən sevgisi hər zaman yüksəkdir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## Polkovnik: Rəsmi İrəvan bilməlidir ki, istənilən gərginlik sonda Ermənistanın faciəsi ilə nəticələnəcək

Ermənistanı himayə edən beynəlxalq güclər onu təmas xəttində təxribatlara sövq etməklə regionda vəziyyəti gərginləşdirməyə, bununla da özlərinə süni şəkildə tələbat yaratmağa çalışırlar.

Bu fikri AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini istefada olan polkovnik Cəlil Xəlilov səsləndirib.

İstefada olan polkovnik qeyd edib ki, Ermənistan tərəfinin ordumuza məhz öz himayədarlarının sifarişi ilə atəş açdığı heç kimə sirr deyil.

"Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu darmadağın edərək ona öz yerini göstərdi. Ordumuz, xalqımız, Müzəffər Ali Baş Komandanımız sübut etdi ki, himayədarlarının İrəvana verdiyi bu qədər dəstəyə baxmayaraq, Azərbaycan işğaldakı torpaqlarını azad etməyə, öz təhlükəsizliyini, ərazi bütövlüyünü təmin etməyə qadirdir. Bu baxımdan, Azərbaycanla son müharibədə hərbi potensialının 80 faizindən çoxunu itirən Ermənistanın ordumuzun mövqelərinə yalnız öz iradəsi ilə atəş açması, təxribatlar törətməsi inandırıcı deyil. Bu, daha çox ermənipərəst dairələrin, xaricdəki böyük güclərin təhriki ilə həyata keçirilir. Onlar regiona yol tapmaq, buradakı mövcudluqlarına haqq qazandırmaq üçün çalışırlar ki, yeni hərbi qarşıdurma yaratsınlar. İstəyirlər ki, Azərbaycanla Ermənistan yenidən üz-üzə gəlsin ki, onlar da vəziyyətdən istifadə edərək regionda möhkəmlənə, proseslərin axarına yön verə bilsinlər.

Şübhəsiz, Azərbaycan bütün bunları görür və anlayır. Lakin bu məsələdə Ermənistan hakimiyyətinin də azad iradə nümayiş etdirməsi, onu təxribata sürükləyən güclərə qətiyyətlə "yox" deməsi vacibdir. İrəvan Qərbin, onun ayrı-ayrı dairələrinin əlində alət olmaqdan çəkinməli, kənar güclərin regiona müdaxiləsinə, bölgədə vəziyyəti gərginləşdirməsinə imkan verməməlidir. Rəsmi İrəvan unutmamalıdır ki, istənilən gərginlik sonda Ermənistanın faciəsi ilə nəticələnəcək", - deyə həmsöhbətimiz vurğulayıb.

O, Azərbaycan Ordusunun Vətən müharibəsindən sonra daha da gücləndiyini, öz peşəkarlığını, hərbi-texniki təchizatını yeni mərhələyə yüksəltdiyini qeyd edərək deyib: "Azərbaycan Ordusu indi, Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Vətən müharibəsi dövründəki ordu deyil. Ordumuz öz peşəkarlığını, hərbi-texniki təchizatını daha da yüksəldib. Azərbaycan Ordusu mahiyyət etibarilə yeni mərhələyə qədəm qoyub. Bu isə bizə imkan verir ki, xalqımızı, dövlətimizi, təhlükəsizliyimizi təhdid edən istənilən təhlükəni dəf edək. Ermənistan və onların havadarları da bilməlidirlər ki, Azərbaycan Ordusu istənilən təhdid və təxribatın qarşısını almağa qadirdir. Yeni bir qarşıdurma sadəcə Ermənistanı deyil, onun himayədarlarını da məyus edəcək, Azərbaycanın Zəfər tarixini isə daha da zənginləşdirəcək".

# Əsgərin uğuru onun yüksək döyüş bacarığındadı

Əsgər Nazim Mehralıyev intizamı ilə komandirlərinin və silahdaşlarının rəğbətini qazanan hərbi qulluqçulardandır. Nazim ona təhkim edilmiş silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir, komandirlərin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirir, silahdaşları arasında mehriban və səmimi dost kimi sevilir. Dəfələrlə təlim-atış çalışmalarında uğurlu nəticələr əldə edib. Onun hərbi intizamı, bacarığı, döyüş qabiliyyəti göstərir ki, Nazim hər an döyüş tapşırığını yerinə yetirməyə hazırdır, - zabit Elsevər Manafov onun haqqında belə dedi.



Məşğələ yerində görüşüb həmsöhbət olduğum əsgər Nazim Mehralıyev deyir ki, ona təhkim edilən silahı ilk dəfə hərbi xidmətə gələndə görüb. Ancaq avtomat, snayper kimi üzdə olan silahlar haqqında orta məktəbdə oxuduğu illərdə ilkin məlumatlar öyrənib, natamam söküb-yığmağı da məşq edib. Nazim silah ilə bağlı dedi:

- Silahım haqqında öyrəndikcə onun döyüşdə nə qədər əhəmiyyətli olduğunu dərk etdim. Silahım döyüşdə düşmənin zirehli və başqa texnikalarını məlum məsafədən məhv etmək gücünə malikdir. Həm də əl qumbaraatanından optik və mexaniki nişangahdan istifadə etməklə də hədəfləri sıradan çıxara bilirəm.

Əsgər silahdan istifadə zamanı təhlükəsizliyə ciddi riayət etməyin də vacibliyini söylədi. Atıcı uzanmış, diz üstə və ayaq üstə vəziyyətlərində silahdan istifadə edə bilər.

Əsgər Nazim Mehralıyev onu da bildirdi ki, hər bir əsgər bölmədə olan atıcı silahları da öyrənməlidir. Bu səbəbdən də Nazim digər silahlar haqqında da müfəssəl biliklər qazanıb. Əsgər yaxşı dərk edir ki, döyüş zamanı ehtiyac yaranarsa, istənilən atıcı silahdan istifadə etmək kimi bir zərurət ortalığa çıxa bilər.

Əsgərin fərdi bacarıqları ilə yanaşı, ruh yüksəkliyi, düşmənlə üzbəüz döyüşmək cəsarəti, yüksək taktiki hazırlığı da onu uğura aparan ən vacib amillərdəndir. Əsgər Nazim Mehralıyevin qeyd olunan bütün bacarıqları özündə cəmləşdirən hərbi qulluqçu olduğunu gördük.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Medallı igidlərimiz

# “Qələbədən sonra daha məsuliyyətlə xidmət edirik”

Ordumuzun şəxsi heyəti 44 günlük Vətən müharibəsində əsl rəşadət və şücaət göstərdi. Onların igidliyi həmişə nümunə göstəriləcək. "N" hərbi hissəsində torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə fədakarlıqla iştirak edən, xalqımıza Zəfər sevinci yaşadan hərbçilərimiz haqqında iftixarla söhbət açdıq. Belə hərbçilərimizdən biri də Eynur Əliyevdir. Onun həyat və xidmət yolu haqqında qeydlər apardım.

Yeniyetməlik yaşlarından hərbi həyata maraq göstərən, ölkəmizin həyatında baş verən hadisələrə, torpaqlarımızın işğal edilməsinə biganə qala bilməyən Eynur Vaqif oğlu Əliyev də bütün peşələrdən şərəfli olan zabit peşəsinə yiyələnməyi qarşısına məqsəd qoyub.



1986-cı ildə Bakı şəhərində anadan olan Eynur, Binəqədi rayonundakı 99 saylı məktəbdə təhsil alıb. Məktəbdə keçirilən vətənpərvərlik tədbirlərində fəal iştirak edib. Müəllimlərinin etimadını həmişə doğruldub. 2002-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Arzuladığı məktəbin kursantı olması sevincini yaşayıb. Liseydə də fərqlənən kursantlardan olub. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini davam etdirib. Seçdiyi peşənin sirlərini təcrübəli zabitlərdən, müəllimlərdən öyrənməyə, bilik və bacarığını artırmağa çalışıb. 2009-cu ildə Ali Hərbi məktəbi bitirərək artilleriya ixtisasına yiyələnib. "Leytenant" hərbi rütbəsinin verildiyi günü isə həyatının ən əlamətdar günü kimi qiymətləndirir. Çünki silahdaşları ilə Vətənə, xalqa fədakarlıqla xidmət edəcəklərini Ermənistan ordusu tərəfindən işğal edilmiş torpaqlarımızın xilaskarları sırasında olacaqlarına bir daha əminliklərini ifadə ediblər. Onu "N" hərbi hissəsinə taqım komandiri vəzifəsinə təyin ediblər. İlk gündən komandirlik etdiyi şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksək olması üçün səy və bacarığını əsirgəməyib. Vətənpərvərlik mövzusunda maarifləndirici söhbətlərə üstünlük verib. Qədim və zəngin tariximiz, Milli Qəhrəmanlarımız haqqında söhbətlər aparıb.

2016-cı ilin Aprel döyüşlərində iştirak edib. Həmin döyüşlərdə ordumuz tərəfindən düşmənin xeyli canlı qüvvəsi, texnikası, silah-sursatı məhv edildi. İşğal altında olan torpaqlarımızın bir hissəsi azad olundu. Beləliklə də, düşmən ordusu şanlı ordumuzun gücünü, qüdrətini gördü. Müzəffər Ali Baş Komandan tərəfindən artilleriyaçıların xidmətləri də yüksək qiymətləndirildi.

Mənfur düşmən işğalda saxladığı torpaqlardan çıxmamaq üçün çirkin niyyətlərə, təxribatlara əl atırdı. 2020-ci ilin 27 sentyabrında düşmənin genişmiqyaslı təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandan əks-hücum əmri verdi. Ordumuz düşmən ordusuna qarşı döyüş əməliyyatlarına başladı. Qısa müddətdə yenilməz ordumuzun hissələri düşmənin ərazilərimizdə qurduqları sədləri, səngərləri, maneələri darmadağın edərək, rayon və şəhərlərimizi azad etməyə başladı. Rəşadətli döyüşçülərimiz böyük igidliklə ərazilərimizi azad etdilər. Əks-hücum əməliyyatında mayor Eynur Əliyevin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də qarşıya qoyulan bütün tapşırıqları yüksək bacarıqla yerinə yetirdi. Tariximizə əbədi olaraq Zəfər salnaməsi yazıldı. Bu tarixi Zəfəri yazanlar sırasında olmasından həmişə qürur hissi keçirən mayor Eynur Əliyevin xidmətləri də Müzəffər Ali Baş Komandan tərəfindən mükafatlandırıldı. O, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olundu.

Böyük Qələbəmizlə başa çatan döyüşlərdən sonra mayor Eynur Əliyev ixtisasartırma kursunu müvəffəqiyyətlə bitirərək, xidmətini "N" hərbi hissəsində davam etdirdi. Əsas məqsəd və məramının şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin daim yüksək olduğunu bildirən təcrübəli zabit şəhidlərimizin canı bahasına təmin olunan suverenliyimizin və ərazi bütövlüyümüzün keşiyində hər zaman mətin dayandıqlarını qətiyyətlə vurğulayaraq dedi ki, Qələbədən sonra daha məsuliyyətlə xidmət edirik.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Hərbi tibb və göz sağlamlığı

Bu gün uğurla davam etdirilən genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşməsinə, iqtisadiyyatın inkişafına, əhalinin sosial rifahının yaxşılaşmasına, xalqımızın milli-mədəni irsinin, mənəvi dəyərlərinin qorunmasına və ümumilikdə Azərbaycanın yüksəlişinə xidmət edir. Yeni mərhələdə islahatların dərinləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Bu islahatlar iqtisadi idarəetmənin köklü səviyyədə müasirləşməsinə, inkişafın yeni hərəkətverici qüvvələrinin təşəkkül tapmasına və hər bir Azərbaycan vətəndaşının rifahının yüksəlməsinə zəmin yaradır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında, başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirilir. Ordumuzun döyüş hazırlığının daha da artırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmr və tapşırıqlar Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək səviyyədə icra olunur.

Şübhəsizdir ki, insan üçün ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri dururlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışından dərhal sonra həyata keçirməyə başladığı uğurlu islahatlar tibb sahəsindən də yan keçməyib. Səhiyyənin səmərəsinin yüksəldilməsi və intensivləşdirilməsi üçün maddi-texniki baza yaradılıb, beynəlxalq əlaqələr genişləndirilib. Görülən işlərin, aparılan islahatların nəticəsində bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa edilərək müasir avadanlıqlarla təmin olunur. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir.

Azərbaycan Ordusunda da səhiyyə sahəsinə xüsusi diqqət göstərilir. Hərbi tibb elminin inkişafı üçün Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında ciddi işlər görülür. Son zamanlar bu imkanlar daha da genişlənib. Azərbaycan Ordusunun inkişaf etmiş ölkələrlə ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlıq sahəsində apardığı uğurlu işlər, şübhəsiz ki, hərbi təbabətin inkişafına da təsirsiz ötüşmür. Ötən illər ərzində hospitalın maddi-texniki bazası, müalicə-diaqnostika imkanları, kadr potensialı dəfələrlə artmış, Baş Klinik Hospital regionun ən böyük hərbi tibb müəssisəsinə çevrilmişdir. Baş Klinik Hospitalın müalicə korpuslarının ən müasir avadanlıqlarla təchiz edilməsi bu sahəyə göstərilən dövlət qayğısının nümunəsidir. Onlarla hərbçi həkimimiz hər il müxtəlif xarici ölkələrdə elmi simpoziumlarda, beynəlxalq konfranslarda fəal iştirak edir, faydalı təcrübə mübadiləsi aparırlar.

Hərbi qulluqçuların sağlamlığının keşiyində duran hərbi tibb personalımız daima öz üzərində çalışır və yeni-yeni nailiyyətlər əldə edirlər. Peşəsini layiqincə davam etdirən tibb işçilərimizin nə qədər məqsədə və məsuliyyətli işi öz öhdələrinə götürmələri hər kəsə bəllidir. Hərbi tibb sahəsi yalnız döyüş meydanında deyil, həm də dinc dövrdə hərbi personalın sağlamlığının qorunmasında vacib rol oynayan bir sahədir. Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında




fəaliyyət göstərən oftalmologiya şöbəsinin koordinator həkimi, tibb xidməti kapitanı Təbriz Məmmədov ilə söhbətimiz zamanı bunu bir daha aydın şəkildə başa düşdük. 2010-2018-ci illərdə Gülhanə Hərbi Tibb Akademiyasında bakalavr həkim təhsili alan Təbriz Məmmədov 2018-2023-cü illərdə də oftalmologiya üzrə uzmanlıq ixtisas təhsili alıb. Həmsöhbətimiz peşəkar və savadlı həkim olmaq üçün, ilk növbədə, təhsilin önəminə diqqət çəkdi. O, savadlı kadr kimi formalaşmağın təkcə həkimlik peşəsində deyil, həmçinin bütün peşələrdə önəmli olduğunu vurğuladı. Tibb xidməti kapitanı əlavə etdi ki, məhz xidmət etdiyi Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında kifayət qədər peşəkar həkim və bacarıqlı tibb xidməti işçiləri var. Təbriz Məmmədov bildirdi ki, hospitalda istər müayinə və müalicə, istərsə də cərrahiyə əməliyyatları aparmaq üçün yetərli sayda texniki avadanlıqlar var. O, müalicə və müayinə prosesinin hansı ardıcıllıqla aparıldığını bizimlə bölüşdü: "İlk öncə hospitala müraciət edən xəstənin qeydiyyatı aparılır. Sonra müayinəmiz xəstənin görmə qabiliyyətinin yüksək keyfiyyətli texniki avadanlıqlarla analiz edilərək müəyyənləşdirilməsi ilə başlayır. Analizin nəticəsinə uyğun olaraq xəstənin görmə qabiliyyətində problem varsa, bunun nə ilə bağlı olduğunu araşdırırıq. Məsələn, refraksiya qüsuru, eynək problemi, yaxud gözün ön seqmentində, həmçinin gözdaxili və ya gözün torlu qişasında bir problem varsa, onu müəyyənləşdiririk. Əlavə olaraq ümumi xroniki xəstəliklə bağlı şəkər, təzyiq, travmotoloji problemləri analiz edirik. Daha sonra müalicə prosesi təyin olunur. Ehtiyac olduğu təqdirdə xəstəyə cərrahi müdaxilə edilir. Qeyd edim ki, istənilən cərrahiyyə əməliyyatlarının aparılması üçün şöbəmizdə şəraitimiz və texniki avadanlıqlarımız mövcuddur".

Təbriz Məmmədov son vaxtlar ən çox yayılan xəstəliklərdən də danışdı: "Ən sıx qarşılaşdığımız xəstəlik, adətən, refraksiya qüsurudur. Yəni, eynək problemi. Onunla yanaşı olaraq, quru göz sindromu çox görüləndir. Əsgərlərdə yaş etibarilə keratokonus xəstəliyi çox sıxdır. 55-60 yaşdan etibarən ən çox qarşılaşdığımız göz kataraktası və digər xroniki xəstəliklərdir. Şəkərə, təzyiqə bağlı göz patologiyaları da vardır ki, bunlar damarsal patologiyalardır".

Oftalmoloq-həkim oxucularımıza göz sağlamlığını qorumaq üçün bir sıra profilaktik tədbirlər haqqında tövsiyələr də etdi: "Çox uzun müddət yaxına baxmaq göz yorğunluğuna, gözdə quruluğa səbəb olur. Quru göz probleminə bağlı olaraq həm bulanıq görmə olur, diskamfort, batma, göynəmə kimi şikayətlər ortaya çıxır. Mümkün olduqca hər bir şəxs yaxına baxdığı müddətdə 20 dəqiqədən sonra otuz saniyə uzağa baxmalı, gözü dincəltməlidir. Xüsusilə uşaqlıqdan başlayaraq görmə və gözdəki hər hansı qüsurun olub-olmamasını aydınlaşdırmaq üçün oftalmoloq müayinəsi mütləqdir. Ümumiyyətlə, bir patologiya şikayəti olmasa belə, ildə bir dəfə göz müayinəsi məsləhətdir ki, xəstəlikləri vaxtında ortaya çıxarıb, gecikmədən həllini tapa bilək. Göz elədir ki, gecikdikdən sonra görmə sinrində olan incəlmələr, patologiyalar geri dönüşsüzdür. Nə qədər tez müalicə almağa başlasaq, nə qədər tez əməliyyat olunsa, nəticələr də o qədər uğurlu olar".

Sonda qeyd edim ki, hərbi tibbin əhəmiyyəti yalnız müharibə zamanı deyil, həm də sülh dövründə böyükdür. Bu sahədə çalışanlar müharibənin gətirdiyi yaraların sağalmasında, fiziki və psixoloji təsirlərin aradan qaldırılmasında əsas rol oynayır. Hərbi tibb sahəsinin inkişafı ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Ordusunun həyata keçirdiyi bütün döyüş əməliyyatlarına şahid olan tibb sahəsində çalışan həkimlər və tibb işçiləri yalnız bilik və bacarıqları ilə deyil, həm də cəsarət və fədakarlıqları ilə Vətənin müdafiəsinə böyük töhfələr verirlər. Onların əməyinin qiyməti ölçülməzdir və hər zaman dərin hörmətlə yad edilməlidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# HHQ-də növbəti buraxılış mərasimi keçirilib



2024-cü ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) Təlim və Tədris Mərkəzində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb. Tədbirdə çıxış edənlər kursu müvəffəqiyyətlə bitirənlərə gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar. Bu cür kursların hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında müstəsna əhəmiyyətə malik olduğu qeyd edilib.



Sonra kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub və şəxsi heyət tribuna önündən təntənəli keçid edib.

## Ayxan Hacızadə: Ermənistan, həqiqətən də, kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərini yerinə yetirməlidir

Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları son 4 ilə yaxın müddətdə yerinə yetirməyib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib.

"Hər iki ölkə ərazisində xarici özəl şirkətin prosesə cəlb olunması barədə fikirlərlə bağlı qeyd edək ki, Azərbaycan heç zaman öz ərazisində üçüncü tərəfin prosesə cəlb olunması barədə müzakirə aparmayıb. Əgər Ermənistan tərəfi, həqiqətən də, bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir", - deyə o əlavə edib.

## "Hürriyet" qəzeti: Ermənistan-Türkiyə dialoqu qardaş Azərbaycanın maraqlarına uyğun aparılmalıdır

Təbii ki, Ermənistan-Türkiyə dialoqu qardaş Azərbaycanın maraqlarına uyğun aparılmalıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin tanınmış jurnalisti Fatih Çekirge-nin "Hürriyet" qəzetində dərc olunan məqaləsində deyilir.

Məqalənin müəllifi Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyanın iki ölkənin dövlət sərhədində bu yaxınlarda keçirdikləri görüşdən yazır və bu kontekstdə vurğulayır ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması iki ölkənin mövqeyinə zidd olmamalı, həmçinin regiona və xalqların rifahına töhfə verməlidir.

Yazıda Türkiyə və Ermənistan sakinlərinin iştirakı ilə bu gün, sentyabrın 8-də Akdamar adasındakı kilsədə baş tutacaq sayca 12-ci ibadət mərasiminə diqqət çəkilir. Müəllif 1950-ci il hadisələrini xatırladır. Həmin vaxt türk jurnalisti Yaşar Kamal Van gölündəki kilsənin sökülməsi qərarının nəzərdən keçirilməsinə nail ola bilmişdi.

"Ümidvaram ki, düşmənçilikdən əl çəkmək və uzunmüddətli sülhə yaxınlaşmaq naminə Akdamar kilsəsində yenidən dualar oxunacaq və son dövrdə baş verən proseslər bölgədə münasibətlərin normallaşmasına töhfə verəcək", - deyə Çekirge qeyd edir.

*Nümunəvi xidmət*

# "Biz qalib ordunun əsgərləriyik"



"Oğul düşmən çəpəridir" deyib atalarımız. Tarix boyu Vətənin başı üzərini qara buludlar alanda, silaha sarılan oğullar qəhrəmanlığı və igidliyi ilə düşmənə göz dağı olublar. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində 30 ilə yaxın davam edən işğalı sonlandırdı Azərbaycan əsgəri. Onlar Azərbaycanın qəhrəmanlıq tarixində yeni səhifə açdılar. Bu gün Hərbi Andı qəbul edib qalib Azərbaycan Ordusunun sıralarına daxil olan əsgərlərimiz düşmən işğalından azad olunmuş ərazilərimizdə xidmət edir, döyüş tapşırıqlarını şərəflə və layiqincə yerinə yetirirlər.

Vətənə sədaqət andı içən "N" hərbi hissəsinin bir qrup gənc əsgəri ilə görüşüb, onların təəssüratlarını qələmə aldıq.

**Əsgər Orxan Ələkbərov:**

- Rəşadətli ordumuzun əsgəri adını daşımaqdan çox qürurluyam. Vətənin hər bir oğlu əsgər formasını geyinib, onun keşiyində dayanmağa borcludur. Bu torpaq, bu Vətən şəhidlərimizin bizə əmanətidir. Onların əmanətlərini göz bəbəyimiz kimi qorumalıyıq. Şəhidlərimizin qanı, canı bahasına xalqımız azad, xoşbəxt, firavan və suverenliyini tam bərpa etmiş bir ölkədə yaşayır. Onların şərəfli döyüş yolu hər birimizə nümunədir. Vətəni necə sevməyi, onu necə qorumağı, müdafiəsində dayanmağı şəhidlərimizin həyat hekayəsini vərəqlədikcə öyrənirik. Onların adlarını yaddaşımıza həkk edir, qəlbimizdə yaşadırıq.

Bakı şəhərində anadan olmuşam. Orta təhsilimi Binəqədi rayonu 83 saylı məktəb-liseydə almışam. Azərbaycan Texniki Universitetinin həm bakalavr, həm də magistr pillələrini bitirmişəm. Təhsil aldığım universitetin məzunları var ki, keçmiş tələbə yoldaşlarım, indi isə əsgər yoldaşlarımdır. Burada çoxlu dostlar qazanmışam. Deyirlər, əsgərlik vaxtı qazandığın dostluq unudulmur. Hər birimizin ən böyük arzusu Vətənimizə övladlıq borcumuzu layiqincə



yerinə yetirib, alnıaçıq, başıuca valideynlərimizin, doğmalarımızın yanına dönməkdir.



**Əsgər Pərviz Məmmədov:**

- Mingəçevir şəhər Təbiət, Riyaziyyat və Humanitar elmlər təmayüllü liseydə oxumuşam. Sonra yüksək nəticələrlə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşam. Magistratura təhsilimi dayandırıb hərbi xidmətə gəlmişəm. Hərbi xidmətimi başa vurduqdan sonra təhsilimi davam etdirəcəyəm. Artıq ilkin hərbi vərdişlərə yiyələnmişəm. Hərbi Andı qəbul edərək Azərbaycan Ordusu sıralarına daxil olmuşuq. Bütün hazırlıqlarımız yüksək səviyyədə davam edir. Komandirlərimizin öyrətdikləri ixtisas dərslərini dərindən mənimsəməyə çalışırıq. Atıcı silahların taktiki-texniki xüsusiyyətlərini böyük həvəslə öyrənirik. Komandirlərimiz arasında 44 günlük Vətən müharibəsində, antiterror əməliyyatında iştirak edənlər də var. Onlar bizə döyüş və atəş hazırlığı dərslərini həm nəzəri, həm də praktiki cəhətdən öyrədirlər. Vətənimizin müdafiəsində dayanmaq üçün gərək hazırlıqlı, bacarıqlı əsgər olasan. Komandirlərimizin bizə aşıladığı hərbi bilikləri mükəmməl şəkildə öyrənməliyik.

**Əsgər İlkin Nəcəfalıyev:**

- Qorxubilməz qəhrəman Mübarizlərin, Aqşinlərin, Orxanların döyüş yolundan dərs almışıq. Bizdən öncə gələnlər də qəhrəmanlarımızın döyüş yolunu öyrənmişdilər, biz də öyrənirik, gələcək nəsillər də öyrənəcəklər. Torpaqlarımızın bütövlüyü naminə canından keçən hər bir şəhidimizin adı illər, əsrlər keçsə də, xalqımızın yaddaşından silinməyəcək. Əslən Zəngəzur mahalındanıq. Atam Qarakilsə rayonunun Sofulu kəndindəndir. O yerləri görməsəm də, təbiətinin gözəllikləri, zəngin coğrafiyası haqqında böyüklərin danışdıqlarını dinləmişəm, xatirələrini eşitmişəm. Bakı şəhəri Suraxanı rayonunda doğulub böyümüşəm. Suraxanı rayon 280 saylı orta məktəbdə oxumuşam. Orta məktəbi əla qiymətlərlə başa vurub Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşam. Əmim Birinci Qarabağ müharibəsi əlilidir. Vətənpərvər bir ailədə tərbiyə almışam. Zamanı gələndə "mən də hərbi xidmətə gedib, əsgər forması geyinəcəm", - demişəm.

**Əsgər Cavad Məmmədli:**

- Vətənə, torpağa, bayrağımıza bağlılıq hər bir gəncin həyatının amalıdır. Bayrağını sevən gənc xalqını, dövlətini, ordusunu sevəcək. Hərbi formanı geyinib Vətənin müdafiəsində dayanacaq, torpağını qoruyacaq. Əsgər yoldaşlarımla hərbi vərdişlərimizi, hazırlıqlarımızı böyük həvəslə artırırıq. Çalışırıq ki, komandirlərimizin bütün tapşırıqlarını vaxtında yerinə yetirək. Bakı şəhərində yerləşən Avropa Azərbaycan Məktəbindən məzun olmuşam. Azərbaycan Dövlət İqtisad Universitetində həm bakalavr, həm də magistr pillələrini ingilis dilində bitirmişəm. Arzum xidmətimi başa vurduqdan sonra bir



vətəndaş olaraq, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərində çalışmaqdır.

Əminliklə deyə bilərik ki, "N" hərbi hissəsində təəssüratlarını qələmə aldığımız gənc əsgərlər ölkəmizin əsl vətəndaşı kimi xalqımızın rifahı, xoşbəxt gələcəyi naminə Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edəcəklər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Peşəkarlığın artırılması ordunun gücünün yüksəlişidir



*Vətən müharibəsi başa çatdı. Müharibənin davamı olan son əməliyyatlarda Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Bir vaxtlar ərazilərimizdə, ön xətdə, səngərlərin o üzü olan torpaqlarda qalib əsgərlərimizin davamçıları təlim keçirlər. Özləri də qürurludu, biz də. Arada həzin-həzin meh əsir. Bu gözəl mehi duruluq mehi bilirəm. Yaxınlıqdakı meşə zolağından əsə-əsə üzü bu yana yaxınlaşan meh ağacların budaqlarından sürüşür; görünməzlərin duyulması daha gözəl olurmuş.*

Neçə illər əvvəl ön xətt vardı, səngər vardı. Onda da keçirilən təlimlər döyüş hazırlığını yüksəldirdi. O təlimlər torpaqlarımızın işğaldan qurtuluş döyüşləri ərəfəsində keçirilirdi. Bu təlim də (təlimlər də) döyüş hazırlığının yüksəldilməsi üçündü, Azərbaycanın tam bərpa olunmuş ərazi bütövlüyünü müdafiə etmək qorumaq üçündü. Onda zabit təlimin mərhələləri başa çatdıqca qürurla əsgərlərə baxırdı, az sonra tündləşən baxışları uzaqlara yönəlirdi. O vaxtlar zabitin baxışlarını tündləşdirən həmin ərazidə təlim keçirilir. Tarixi Zəfər qazanmış əsgərlərin döyüş hazırlığını artıran təlim keçiriləcək. O vaxt keçirilən təlimi xatırladıram. "Onlar döyüşdülər. Zəfər qazandılar, siz qaliblərin davamçılarısınız...", - deyirəm. Xoş bir ovqat yaranır.

Vəzifə borcu kimi (həm də vətəndaşlıq borcu kimi) xatırlayıram ki, ordu quruculuğunun Zəfərdən sonrakı mərhələsi dövlətə, dövlətçiliyə sədaqətlə davam etdirilir. Bu prosesə təbiətin yaratdığı maneələr (isti-bürkü) mane olmaq qüdrətində deyil - təlimlər təlimata, təsdiq olunmuş plana müvafiq keçirilir...

Baş gizir Əli Mustafayev əsgərlərin tank əleyhinə idarə olunan raket kompleksinin (TƏİR) təyinatından, döyüş xarakteristikasından, istismar xüsusiyyətlərindən danışır. Bu, həm xatırlatmadı, həm də cari təlimatdı. Əsgərlər bildikləri nəzəri məlumatları, təlimatda nəzərdə tutulan müddəaları bilirlər. Yenə diqqətlə dinləyirlər. Bu, sevgidi. Hərbi xidmətə sevgidi, hərbi peşəyə sevgidi. Sevgilərlə əhatələnmiş təlimi sevgilərlə izləyirik...

- Vətən müharibəsində bütün istiqamətlərdə TƏİR-lərlə döyüşlər də ümumi döyüşün gedişinə güclü təsir göstərirdi, həmin döyüşün də, Böyük Qələbəyə aparan döyüşlərin də qələbə ilə tamamlanmasında vasitə olurdu. İkinci Qarabağ müharibəsində TƏİR-lər sanki düşmənin zirehli texnikalarının "snayperi" idi. TƏİR-lər düşmənin koordinatı verilən, istiqaməti bildirilən zirehli texnikalarını sıradan çıxarırdı, müqavimət sistemini gücsüzləşdirirdi, ordu hissələrimizin hücumunun sürətliyini, davamlılığını yüksəldirdi...

Baş gizir Ə.Mustafayevin xatırlatmalarını bugünkü təlimə mənəvi başlanğıc bilirik. Operator əsgər Mətləb Paşayev TƏİR-in döyüş xarakteristikası haqqında danışır, bildiklərini həvəslə çatdırmağa çalışır. Bu da sevginin çalarıdı, şübhəsiz; bildiklərini ardıcıllıqla "Mən bilirəm" kimi çatdırmır, "Mən də mükəmməl bilirəm" kimi çatdırır. Həm də TƏİR-ə sevgi ilə:

- TƏİR gözəl silahdı. Mən onun istismar xüsusiyyətlərini gənc əsgər hazırlığı kursunda öyrənmişdim. Bütün hərbi ixtisaslar gərəklidir. Mən TƏİR-çi olmağımla qürur duyuram. Hər təlimdən sonra TƏİR-i daha çox sevirəm. Baş gizirdən eşitdiyimiz Vətən müharibəsinin bir döyüşünü heç birimiz heç zaman unutmayacağıq: Füzuli yaxınlığında düşmənin bir tankı hücum edən döyüşçülərimizə yaxınlaşanda TƏİR mərmisi onu sıradan çıxardıb. Az sonra, bir nəfəs dərimi qədər vaxt keçməmiş düşmənin daha iki tankı da görünüb. Diqqət, həssaslıq, cəsarət onları döyüşə başlamamış sıradan çıxardıb. TƏİR Vətən müharibəsində bacarıqlı Azərbaycan əsgərinin əlində güclü silah olub. O silahı indi biz öyrənirik. Hər təlimdən-təlimə təkmilləşirik, - əsgər Mətləb Paşayev belə dedi.



Əsgər Elşad Cəlilov dedi ki, TƏİR-lə düşmənin 100 metrdən 5500 metrə qədər məsafədə olan zirehli texnikalarını sıradan çıxarmaq olur. Silahın döyüş təyinatı belədir. Həm də TƏİR-lə düşmənin hərəkətdə olan döyüş texnikaları məhv edilir.

Hərbi xidmətə Cəlilabad rayonundan çağırılan əsgər Elşad Şəfiyev dedi ki, TƏİR daşınan silahdır, heyəti 3 nəfərdir. Verilən döyüş əmrini yerinə yetirmək üçün heyət döyüş mövqeyi seçməkdə sərbəst olur. Bu da döyüş aparma vərdişlərindəndir. Komandirlərimiz bizə təkcə TƏİR-in istismar xüsusiyyətlərini deyil, ondan hansı şəraitdə, necə, hansı coğrafi mövqedə daha səmərəli istifadə edilməsini də aşılayıb.

Əsgərin fikrini əsgər yoldaşı davam etdirərək dedi ki, heyət üzvlərinin ayrıca vəzifə borcu var. Heyətə döyüş əmri verilir, TƏİR üçün qısa müddətdə döyüş mövqeyi seçilir, TƏİR atışa hazırlanır. Operatorlardan biri atıcıya kömək edir, digəri onların mühafizəsində dayanır. Bu, TƏİR heyətinin düşmənə hansı məsafəyə kimi yaxınlaşmasından asılıdır. Yəni, düşmənin zirehli texnikaları döyüş ərəfəsində piyadaların yaxınlığında olur. Onlar bizim TƏİR-ləri müşahidə edə bilərlər. TƏİR atışa hazırlananda, atış aparanda düşmənin piyadaları onun heyətini atəşə də tuta bilər. Onlara həmlə ehtimalı da olur. Heyətin himayəedici üzvü bu təhlükələri qabaqlayır, döyüş əmri yerinə yetirilənə kimi himayəni davam etdirir.

Baş gizir Ə.Mustafayev Vətən müharibəsindən bir döyüşü xatırladır:

- TƏİR düşmənin tankını vurmağa hazırlaşdığı anlarda heyət iki düşmən əsgərinin həmləsinə məruz qalıb. Heyətimizi himayə edən əsgər düşmənin həmləsini təntimədən, soyuqqanlılıqla qarşılayıb. Qolundan yaralansa da, TƏİR düşmənin tankını sıradan çıxarana kimi atışıb. Döyüşdən çıxan heyətə başqa döyüş əmri verilib. Sonrakı əmrlər də yerinə yetirilib...

Leytenant Rəhim Namazlı bu kompleksin yüksək dəqiqlikli silah olduğunu da xatırlatdı. "Operator silahın istismar xüsusiyyətlərini mükəmməl mənimsəyibsə, onun atışları dəqiq olur. Nəzəri biliklər müxtəlif təlimlərdə möhkəmlənir, gərəkli yüksək döyüş hazırlığına çevrilir. Bu, ordunun güc amilinin yüksəlişi deməkdir. Taqımın əsgərləri TƏİR-in atış xüsusiyyətlərini mükəmməl mənimsəyiblər. Onlar da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamını hərbi xidmətin mənəvi stimulu bilirlər"...

Təlim davam edir. Eyni təmrinlər - hərəkətlər təkrarlanır. Heyət üzvlərinin hərəkətlərində bir əminlik hiss olunur. Bu əminliyi komandirin xırda məsləhətləri tamamlayır - heyət üzvləri hərəkəti yerinə yetirəndə nə tələsməlidi, nə də ləngiməlidi. Təlim, əslində, əmrdən icraya qədər çəkən müddətin müəyyənləşdirmə peşəkarlığını tənzimləməyə də yönəldilib...

Leytenant R.Namazlı əminliklə TƏİR heyətinə baxır - təlim təlimata müvafiq səviyyədə yerinə yetirilib...

Bayaqdan əsən mehdə bir mülayimlik duyulur...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Uşaqlıq arzusunu gerçəyə çevirən zabit

Zabit peşəsi adi bir peşə deyil, hər bir addımında böyük məsuliyyət, fədakarlıq və Vətən sevgisini daşıyan müqəddəs bir yoldur. Zabit olmaq silahı təkcə çiynində deyil, vicdanında daşımaqdır. Hər bir zabitin ürəyində səmanın mavi dərgahı qədər geniş olan bir Vətən sevdası yatır. Onlar ölkənin hər bir qarış torpağını qorumaq üçün canlarından keçməyə hazırdırlar. Bu peşənin aliliyi zabitlərin fədakarlığında və onların xalq qarşısındakı andlarında öz əksini tapır. Belə zabitlərdən biri də baş leytenant Vüsal Hüseynovdur. Vüsal hələ uşaq yaşlarından doğma Vətəninə xidmət etməklə bağlı böyük arzularla yaşayıb. Hələ uşaqlıqdan Vüsalın qəlbində bir yurd sevgisi, Vətənə xidmət etmək istəyi olub. Böyüdükcə bu ülvi hissləri də böyüyüb, onun həyat yoluna, peşə seçiminə təsir edib. O, Vətəni uğrunda silah tutmağa, ona layiqli bir hərbi qulluqçu olaraq xidmət etməyə qərar verib. V.Hüseynov 1996-cı il iyulun 10-da Bakı şəhərində doğulub. Əslən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Tivi kəndindən olan Vüsal orta məktəbi bitirdikdən sonra 2014-2018-ci illərdə Neft Akademiyasında ali təhsil alıb. Bu təhsil müddəti onun üçün yalnız peşəkar bilik qazanmaq deyil, həm də özünü formalaşdırma dövrü olub. O, bu dövrdə də qəlbindəki hərbçi sevdaya sadiq qalıb, hərbçi olmaq arzusundan geri dönməyib.

Nəhayət, Vüsal 2020-ci ilin sentyabrında uşaqlıqdan arzusunda olduğu hərbçi peşəsinə yiyələnmək üçün "Ehtiyat zabit hazırlığı" kursuna qəbul olub. Kursu bitirdikdən sonra Hərbi Hava Qüvvələrinə məxsus "N" hərbi hissəsində xidmətə başlayıb. Hərbi xidmətə bağlılığı, dəqiqliyi və məsuliyyəti onun bir zabit kimi formalaşmasında daim köməklik göstərib. O, bu gün də Vətən sevgisini hərbi xidmətinin hər bir anında nümayiş etdirməyə, zabit peşəsinin məsuliyyətini daima qürurla daşımağa çalışır.



Hazırda qüdrətli Azərbaycan Ordusunun sıralarında xidmət edən Vüsal öz hədəflərinə doğru irəliləyərək, Vətənə olan borcunu şərəflə yerinə yetirməkdə davam edir.

V.Hüseynovla söhbətimizdə o hər zaman doğma Vətəninə bağlı olduğunu dilə gətirdi: "Ordu həyatında vətənpərvərlik günün ayrılmaz hissəsidir, hər bir hərəkətimiz bu hisslə doludur. Biz ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısı olan qalib ordumuzun sıralarında xidmət edirik və bu hər bir hərbi qulluqçuya güc və inam verir", - zabit dedi.

Şübhəsiz ki, dünyanın aparıcı ölkələrinin orduları ilə bir sırada dayanan Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, intizamı, maddi-texniki təchizatı hazırda yüksək səviyyədədir. Bu gün Azərbaycan qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan orduya malik güclü ölkələrdən biridir. Azərbaycan Ordusunun sıralarında vətənpərvər, peşəkar hərbçilərin sayı artdıqca, doğma Vətənimizin gələcəyi daha da parlaqlaşır. Vüsal kimi, Azərbaycan Ordusunda xidmət edən yüzlərlə vətənpərvər gənclərimizin varlığı xalqımızın güvənc yeridir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ ordusu hipersəs raketinin növbəti sınağını keçirəcək



ABŞ ordusu hipersəs silahlarının növbəti sınağını keçirməyə hazırlaşır. Pentaqonun məlumatına görə, uzaqmənzilli hipersəs silahlarının yeni sınağını 2024-cü ilin sonuna qədər keçirmək planlaşdırılır. Söhbət ABŞ ordusunu və Hərbi Dəniz Qüvvələrini təchiz etmək üçün hazırlanan "Dark Eagle" raket sistemindən (LRHW) gedir.

"Dark Eagle" hipersəs raketi saatda təxminən 6 min kilometr sürətlə uçmağa qadirdir. O, hündürlükdə manevr edə bilir ki, bu da raketdən müdafiə sistemlərinin raketi aşkarlamasını çətinləşdirir. Raketin layihə uzaqlığının 2775 kilometr olduğu bildirilir.

## Türkiyədə zirehli maşın qəzaya uğrayıb, 4 hərbçi həlak olub



Türkiyənin şərqindəki Tunceli vilayətində zirehli hərbi maşının qəzaya uğraması nəticəsində dörd hərbçi həlak olub, bir çavuş yaralanıb.

Hadisə Ovacık və Hozat rayonları arasındakı Karaoğlan bölgəsində baş verib.

İdarəetməni itirərək aşan maşının Jandarmeriya Komandanlığına aid olduğu bildirilir.

Hadisə ilə bağlı daxili işlər naziri Ali Yerlikaya həlak olan hərbçilərin ailə üzvlərinə baş sağlığı verib.

## ABŞ Əfqanıstandan qoşunların çıxarılması ilə bağlı təhqiqatı genişləndirmək niyyətindədir



Konqresdəki respublikaçılar ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması ilə bağlı təhqiqatı genişləndirmək və demokratları seçkidə tənqid edərkən bunu mərkəzi məsələyə çevirmək niyyətindədirlər.

Bu barədə "The Washington Post" məlumat yayıb.

"ABŞ Konqresindəki respublikaçılar Bayden administrasiyasının Əfqanıstandan qoşunların çıxarılmasına dair qərarı ilə bağlı təhqiqatı genişləndirir və şahidlərdən əlavə ifadələr tələb edirlər", - nəşr mənbələrdən sitat gətirib.

Qeyd edilib ki, Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsindəki respublikaçılar 2021-ci ilin avqustunda Kabildəki qoşunlara rəhbərlik etmiş amerikalı hərbi komandirləri dinləmələrə çağırmağı planlaşdırırlar. Bəziləri əvvəllər Prezident Cozef Bayden administrasiyasının Əfqanıstanla bağlı qərarlarını tənqid edib.

Məqalədə, həmçinin bildirilir ki, prezidentliyə namizəd Donald Tramp öz kampaniyasını Əfqanıstandan qoşunların çıxarılması zamanı ABŞ-ın hərbi itkilərinə yönəltməyi və bu məsələdən siyasi rəqiblərini tənqid etmək üçün istifadə etməyi planlaşdırır.

Bundan əvvəl ABŞ-ın Dövlət katibi Antoni Blinken Nümayəndələr Palatasının deputatlarının tələbi ilə Amerika qoşunlarının 2021-ci ildə Əfqanıstandan çıxarılması ilə bağlı ifadə vermək üçün Konqresə çağırılmışdı.

## Belarus ordusu Ukrayna ilə sərhədi gücləndirir



"Belarus cənub sərhədlərindəki dövlət sərhədinin təhlükəsizliyi gücləndirir".

Bu barədə Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Aleksandr Volfoviç "Milli Müdafiə" jurnalına verdiyi müsahibədə bildirib. O bildirib ki, buna səbəb qəfil hücum ehtimalında müdafiəni gücləndirməkdir.

"Mövcud vəziyyətə adekvat cavab vermək üçün Belarusun cənubundakı dövlət sərhədinin mühafizəsini və müdafiəsini gücləndiririk. Biz bunu Silahlı Qüvvələrin, digər qoşunların əlavə birləşmələrinin hərbi hissələrinin səfərbər edilməsi və yerləşdirilməsi yolu ilə edirik. Eyni zamanda diversiya hərəkətlərinə kompleks müqavimət sisteminin səmərəliliyinin artırılması istiqamətində pilotsuz uçuş aparatları ilə nəzarət edilir", - deyə o qeyd edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətənpərvərlik tədbiri Vətəni sevdirmə missiyasıdır



Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, hərbi hissə və birləşmələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi məqsədilə keçirilən tədbirlər davam edir. Belə tədbirlər mahiyyət baxımından vətənpərlik tədbirləridir.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təbliğat-təşviqat qrupunun fəaliyyəti də bu baxımdan diqqəti çəkir. "Vətən uğrunda" ansamblının üzvləri dislokasiya yeri işğaldan azad edilmiş ərazilərdə olan hərbi hissələrdə müxtəlif səpkili tədbirlər keçirirlər ki, bunlar da bilavasitə hərbi qulluqçuların vətənpərvərlik duyğularının tarixi Zəfərin işığında formalaşmasına, möhkəmlənməsinə yönəldilir.

Mərkəzin əməkdaşları "N" hərbi hissəsində maarifləndirmə söhbəti təşkil edib. Maraqlı söhbəti Mərkəzin əməkdaşlarının hazırladığı nahar süfrəsi tamamlayıb. Belə səmimi tədbir əsgərlərdə xoş ovqat yaradıb. Əsgərlər "Əsgərə məktub" layihəsinin yerinə yetirdiyi missiyanı böyük coşqu ilə qarşılayıb - məktublar əsgərlərin könül dünyasının səyyarəsinə dönüb.

Vətənpərvərlik mövzusunda keçirilən sorğu-müsabiqə də maraqla qarşılanıb. Əsgərlər Azərbaycan dövlətçiliyinin tarixinə, hərb tarixinə, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə aid sualları əhatəli cavablandırıblar.



Fərqlənənlərə "Bayraq", "Xarıbülbül" döş nişanları təqdim edilib. Əsgərlər bundan sonra da nümunəvi xidmət edəcəklərini bildiriblər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**



# İdman

## Azərbaycan gimnastları beynəlxalq turnirdə 7 medal qazanıblar



Azərbaycanın bədii gimnastları San Marino Respublikasının Serravalle şəhərində keçirilən "San Marino Cup" yarışında 7 medal qazanıblar.

İki gün davam edən turnirdə böyüklərdən İlona Zeynalova çoxnövçülükdə, halqa və topda ikinci, gürz və lentlə hərəkətlərin icrasında üçüncü yeri tutub.

Gənclərdən isə Şəms Ağahüseynova lentlə hərəkətlərdə qızıl, çoxnövçülükdə gümüş mükafata yiyələnib.

## Paris Paralimpiadasının bağlanış mərasimi keçirilib



Fransanın paytaxtı Paris şəhərində Yay Paralimpiya Oyunlarının bağlanış mərasimi keçirilib.

"Stad de Frans" stadionunda təşkil edilən tədbirdə səhnəyə əvvəlcə iştirakçı ölkələrin nümayəndə heyətləri daxil olublar.

Ölkələrin rəsmi paradında Azərbaycan Bayrağını Olimpiadanın qızıl mükafatçıları olan paraatletlər Lamiyə Vəliyeva və Səid Nəcəfzadə dalğalandırıblar.

Qeyd edək ki, "Paris-2024" Yay Paralimpiya Oyunlarında 7 idman növü üzrə 18 idmançı ilə təmsil olunan Azərbaycan 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla ümumilikdə 11 medal qazanıb. Ölkəmiz medal sıralamasında 169 ölkə arasında 28-ci yeri tutub.

## Azərbaycan kamandan oxatanları Gürcüstanda keçirilən turnirdə gümüş medal qazanıblar



Azərbaycan kamandan oxatanları Gürcüstanda keçirilən beynəlxalq turnirdə uğurlu çıxış ediblər.

Fatimə Hüseynli qadınların fərdi mübarizəsində fərqlənərək fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Məhəmmədəli Əliyev isə F.Hüseynli ilə birlikdə qarışıq komanda yarışında gümüş medala layiq görülüb.

## Avropa çempionatı: Azərbaycanın daha iki cüdoçusu medal əldə edib



Azərbaycanın daha iki cüdoçusu Estoniyanın paytaxtı Tallində keçirilən gənclər arasında Avropa çempionatında medal qazanıb.

Şamil Tuncay (90 kiloqram) və Kənan Nəsibov (+100 kiloqram) üçüncü yer uğrunda görüşdə öz rəqiblərinə qalib gəliblər.

Bununla da çempionatın fərdi yarışlarına yekun vurulub.

Qeyd edək ki, Azərbaycan cüdoçularından daha əvvəl Könül Əliyeva (48 kiloqram), Fidan Əlizadə (57 kiloqram), Vüsal Qələndərzadə (73 kiloqram) və Süleyman Şükürov (81 kiloqram) Avropa çempionu olublar, Nizami İmranov (60 kiloqram) və Aslan Kotsoyev (90 kiloqram) gümüş medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Baş gizir Muradov Aqil Alim oğluna verilmiş SQ № 0025909 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Kiçik gizir Nağıyev Əli Nurəddin oğluna verilmiş AD № 0015382 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 522
Nüsxə 4633